# Türkiyədə yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Ənvər Paşa" və digər kitablarının təqdimatı keçirilib








Martın 14-də Türkiyənin Bandırma şəhərində Bandırma Onyedi Eylül Universitetində yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Ənvər Paşa" və digər kitablarının təqdimat mərasimi olub.

Universitetin rektoru, professor İsmail Boz Türkiyə türkcəsinə çevrilən bu kitabların müəllifi Hüseynbala Mirələmov imzasının türk oxucularına yaxşı tanış olduğunu vurğulayıb və "Ənvər Paşa"nı Azərbaycan-Türkiyə qardaşlığına böyük töhfə hesab edib.

Təqdimatda iştirak edənlər böyük sevgi və sayğı ilə qələmə alınan əsərlərin Türkiyədə böyük maraq doğuracağına əminliklərini ifadə edərək bu kitabları yüksək dəyərləndiriblər.

Xatırladaq ki, Hüseynbala Mirələmovun "Yurda fəda üç paşa" trilogiyasının birinci kitabı olan "Ənvər Paşa" əsərində bu görkəmli tarixi şəxsiyyətin həyat və fəaliyyətinə yeni rakursdan nəzər salınıb. Müəllif arxiv materialları və sənədlər əsasında Ənvər Paşanın Azərbaycanla əlaqələri və millətimizin öndə gedən aydınları ilə olan dostluq münasibətlərini, Turan İslam İmperatorluğu qurmaq uğrunda apardığı böyük mücadiləni, şəxsi yaşantılarını, sevgi və iztirablarını, Tacikistanın Bəlcivan torpağında şəhidlik məqamına yüksəlişini yazıçı təxəyyülünün köməyilə qələmə alıb.

Elə həmin gün Bandırma Onyedi Eylül Universitetinin rektoru, professor İsmail Boz filologiya elmləri doktoru, professor Elman Quliyevi də qəbul edib.

Səmimi şəkildə baş tutan görüşdə rektor azərbaycanlı alimin ünvanına xoş sözlər söyləyib. Bildirib ki, Elman Quliyevin yaradıcılığının əsas xəttini türk dünyası ədəbiyyatının öyrənilməsi təşkil edir. Ən qədim dövrlərdən tutmuş, çağdaş dönəmədək ayrı-ayrı türk xalqlarının ədəbiyyatının keçib-gəldiyi yolun elmi-nəzəri mənzərəsinin yaradılması, görkəmli şəxsiyyətlərinin tanıdılması onun araşdırmalarının əsasında dayanır və bu kitabların Türkiyə türkcəsinə çevrilməsi böyük önəm daşıyır. Professor Elman Quliyev kitablarını rektora təqdim edib.

Qeyd edək ki, Elman Quliyevin ilk dəfə tədris proqramına uyğun olaraq qələmə aldığı "Türk xalqları ədəbiyyatı" kitabında türk xalqları ədəbiyyatının yaradıcılıq mərhələləri, ayrı-ayrı görkəmli sənətkarlarının həyat və yaradıcılığı geniş tədqiq və təhlil olunub. Kitab artıq türk dünyasında geniş əks-səda doğurub, müxtəlif dillərə tərcümə edilib, Özbəkistan Təhsil Nazirliyinin qərarı ilə universitetlərdə dərslik kimi təsdiqlənib. Bu gün Türkiyə universitetlərində də dərslik kimi istifadəsi tövsiyə olunub. TÜRKSOY-un tövsiyəsi ilə çap olunan bu kitab Azərbaycanda da türk xalqları ədəbiyyatı mövzusunda yeganə dərslik hesab olunur.

Türkiyəyə səfərin növbəti günü - martın 15-də Bandırma Onyedi Eylül Universitetində düzənlənən beynəlxalq konfransda yazıçı-dramaturq, professor Hüseynbala Mirələmov və filologiya elmləri doktoru, professor Elman Quliyev də iştirak ediblər.

Azərbaycanlı qonaqlar konfrans iştirakçılarına xüsusi təqdim edilib və yaradıcılıqları haqqında geniş məlumat verilib. Hüseynbala Mirələmov və Elman Quliyev çıxış edərək qardaş ölkədə keçirilən konfransın əhəmiyyətindən danışıb və isti qarşılanmaya görə təşəkkür ediblər.

Konfransdan sonra azərbaycanlı alim-yazarlar Hüseynbala Mirələmovun "Ənvər Paşa" və Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" kitablarının imza mərasimi keçirilib. Mərasimdə Universitetin professor və müəllim-tələbə heyəti iştirak edib. Bu möhtəşəm görüşdə müəlliflər həm kitablarını imzalayaraq təqdim edib, həm də sualları cavablandırıblar. Mərasimdə iştirak edən elm və ədəbiyyat xadimləri bu kitabların Türkiyə universitetlərində də dərslik kimi tədris olunmasını arzu etdiklərini bildiriblər.

Daha sonra müəlliflərin iştirakı ilə kitablar Universitetin elektron sisteminə daxil edilib.

Bandırma Onyedi Eylül Universitetində düzənlənən beynəlxalq konfransdan sonra yazıçı-dramaturq, professor, Hüseynbala Mirələmov və filologiya elmləri doktoru, professor Elman Quliyev ilə Türk Ocaqları İstanbul şöbəsində də görüş keçirilib.

16 martda baş tutan görüşdə Hüseynbala Mirələmovun "Ənvər Paşa", Elman Quliyevin "Türk xalqları ədəbiyyatı" kitabları təqdim olunub.

"Türk Ocaqları"nın İstanbul üzrə rəhbəri professor Cezmi Bayram qonaqları salamlayaraq onların hər birinin Türkiyədə kifayət qədər tanındığını vurğulayıb, kitablarla daha öncədən tanış olduğuna görə böyük məmnuniyyətlə təqdimatların keçirilməsinə razılıq verdiyini söyləyib. Çağdaş Türkiyənin istedadlı yazıçısı, Azərbaycan ədəbiyyatının təbliğatçılarından olan İmdat Avşar da tədbirdə çıxış edib. İstanbulda fəaliyyət göstərən elmi-mədəni qurumların, universitetlərin müəllim-professor heyətinin, ədəbiyyat adamlarının, yazarların iştirak etdiyi tədbirdə Azərbaycandan gələn professorların fəaliyyəti təqdir edilib, alqışlanıb, kitabların bütün Türk dünyasına yayılmasının vacibliyi vurğulanıb.

Daha sonra kitablar imzalanaraq tədbir iştirakçılarına təqdim edilib və xatirə şəkilləri çəkilib.